AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

Təsdiq edirəm
ADMİU-nun rektoru
_________professor C.E.Mahmudova

# ADMİU-nun 2022-2025-ci illər üzrə

# ELMİ-TƏDQİQAT və YARADICILIQ STRATEGİYASI

Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin Elmi Şurasının
__27__ oktyabr 2022-ci il tarixli iclasının
__02__ №-li protokolu ilə təsdiq edilmişdir

BAKI — 2022

## ADMİU haqqında

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (bundan sonra – Universitet) Respublikanın xüsusi qabiliyyət tələb edən ali məktəbləri arasında özünəməxsus yer tutur.

Universitet 1923-cü ildə Azərbaycan Maarif Komissarlığının qərarı ilə təsis edilmiş Bakı Teatr Məktəbinin əsasında yaradılıb. Milanda təhsil almış opera sənətimizin ilk professional müğənnisi, SSRİ xalq artisti Şövkət Məmmədovanın təşəbbüsü ilə yaradılmış bu sənət ocağı 100 il ərzində böyük inkişaf yolu keçib.

İlk illərdən başlayaraq Bakı Teatr Məktəbinə dərs deməyə Azərbaycanın görkəmli ziyalıları Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Hüseyn Cavid, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mirseyfəddin Kirmanşahlı, Rza Sarabski, Moskva, Leninqrad və digər şəhərlərdən dəvət edilən Aleksandr Milovanov, Aleksandr Tuqanov, Danil Danilov kimi sənət adamları və mütəxəssislər pedaqoji fəaliyyətə cəlb edilib.

Bakı Teatr Məktəbi təkcə Azərbaycan deyil, digər Qafqaz respublikaları, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Dağıstan və Krım üçün də aktyor və rejissor kadrları hazırlayırdı. Bu kadrlardan görkəmli özbək aktyorları SSRİ xalq artisti H.Nəsirova, N.Əliyeva, Z.Kabulov, X.Xocayev, S.Curabayev, Q.Yaqubov, məşhur türkmən aktyoru və rejissoru A. Karlıyev və başqalarını qeyd etmək olar.

1945-ci ildə Bakı Teatr Məktəbinin bazasında Teatr İnstitutu yaradılıb. 1962-ci ildə Teatr İnstitutunun nəzdində Tədris Teatrı yaradılıb. Tədris Teatrının spesifik xüsusiyyəti ondan ibarətdir ki, o yarandığı gündən indiyədək sənət laboratoriyası funksiyasını yerinə yetirir. 1968-ci ildə isə Azərbaycanda ilk dəfə ali təhsil müəssisəsində səsyazma studiyası fəaliyyət göstərməyə başladı. Sözügedən studiya Mehdi Məmmədov, Adil İsgəndərov, Rza Təhmasib və Müxlis Cənizadə kimi sənətkarların rəhbərliyi ilə tələbələr üçün təcrübə meydanına çevrilmişdir.

1968-ci ildən Azərbaycan Dövlət İncəsənət İnstitutu, 1991-ci ildən Azərbaycan Dövlət İncəsənət Universiteti, 1993-cü ildən isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti adlanan bu ali məktəbdə ötən illər ərzində təkcə teatr üçün deyil, kino sənəti, musiqi, rəssamlıq, mədəni maarif, kütləvi tamaşalar rejissorluğu, kitabşünaslıq, müzeyşünaslıq, turizm, sosial iş, sosialogiya və digər sahələr üçün də kadr hazırlığı aparılmağa başladı.

Yazılanlar keçdiyimiz şərəfli yolun qısa xülasəsidir, bu gün isə biz artıq Avropa İncəsənət Universitetləri Liqasının tamhüquqlu üzvü kimi respublikada mədəniyyət və incəsənət sahəsində diplomları beynəlxalq aləmdə tanınan yeganə universitetik.

## Missiya

Təlimin qabaqcıl innovasiya texnologiyalarını tədris prosesi ilə əlaqələndirməklə mədəniyyət və incəsənət sahələri üzrə respublikada və xaricdə tanınan, müasir dövrün tələblərinə cavab verən rəqabətədavamlı yüksəkixtisaslı peşəkar kadr hazırlığı sistemini formalaşdırmaq.

## Gələcəyə baxış

Respublikada mədəniyyət və incəsənət sahələri üzrə kadr hazırlayan ali məktəblər arasında liderliyə nail olmaq, bu sahədə beynəlxalq səviyyəli platformaya çevrilmək.

## Əsas dəyərlər

• Kollegiallıq: obyektivlik, səmimilik və etibarlılıq kimi prinsiplərə söykənərək həmkarlara, təhsilalanlara və bütövlükdə, kollektivə hörmətlə yanaşmaq;

• Seçim azadlığı: müasirliyə, innovativliyə, kollektiv və fərdi yaradıcılığa əsaslanan bilik qazanmaq üçün ideya azadlığını dəstəkləmək;

• Mükəmməllik: qətiyyətə əsaslanan şəffaf idarəçiliyi, tədrisi, elmi və bədii yaradıcılığı təşviq və inkişaf etdirmək;

• İnklüzivlik və müxtəliflik: inklüzivliyi və multikultural müxtəlifliyi təmin etmək.

ADMİU-nun Strateji İnkişaf Planı (bundan sonra – SİP) “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın tələblərinə müvafiq formalaşdırılıb və onun reallaşdırılması üçün tərtib olunan fəaliyyət planı ali məktəbin prioritetləri və vəzifələri nəzərə alınmaqla hazırlanıb.

**ADMİU-nun Elmi-tədqiqat və Yaradıcılıq Strategiyasının əsasları**

**Hüquqi-normativ əsaslar**

1. “Təhsil haqqında” Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanunu.

2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli Fərmanı.

3. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında 2012-ci il 29 dekabr tarixli Fərmanı.

4. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” barədə 2013-cü il 24 oktyabr tarixli Sərəncamı.

5. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının təsdiq edilməsi haqqında 2015-ci il 19 yanvar tarixli Sərəncamı.

6. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

7. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın təsdiq edilməsi haqqında 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı.

8. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il Sərəncamı.

“Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün nəzərdə tutulmuş sosial-iqtisadi inkişaf strategiyası”nın 3 saylı Milli Prioritetində (*Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı*) – MƏQSƏD 3.1 “XXI əsrin tələblərinə uyğun təhsil”i nəzərdə tutur. Sözügedən sənədin Tədbirlər planının 3.1.5. bəndi fəaliyyət istiqamətini *Elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi* kimi müəyyənləşdirir. *Elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmlərinin formalaşdırılması*; *Beynəlxalq impakt faktorlu jurnallarda çap olunan məqalə sayının artırılması istiqamətində təşəbbüslərin dəstəklənməsi*; *Təhsil sistemində elmi tədqiqatlara və inkişaf layıhələrinə ayrılan xərclərin artırılması və rəqabətli əsasda layihələrin maliyyələşdirilməsi* kimi məsələlər ADMİU-nun Elmi-tədqiqat və yaradıcılıq strategiyasının diqqət mərkəzindədir.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın məqsədi ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sisteminin yaradılmasını nəzərdə tutur. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına adaptasiya olunması üçün yaradılan Strategiyanın reallaşdırılması təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin edəcəkdir.

Strategiya təhsil sisteminin başlıca vəzifələrini aşağıdakı kimi müəyyənləşdirir:

– ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

– məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

– milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq;

– sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın hədəfləri içərisində qeyd olunan 1.4.4. bəndi – ali təhsilin səviyyələri arasında əlaqələrin və varisliyin gücləndirilməsi, doktorantura səviyyəsi üçün elmi tədqiqatlar sahəsində yüksək hazırlığı və elmi-pedaqoji fəaliyyət üzrə mükəmməl səriştəyə yiyələnməni təmin edən müasir standartların hazırlanması – ADMİU-nun Elmi-tədqiqat və yaradıcılıq strategiyası üçün də əhəmiyyətli məqamlardandır.

Bütün sadalanan ümumrespublika səviyyəli sənədlərin göstərilən maddə və bəndlərinə istinad edərək Azərbaycan Dövlət Mədəniyyətə və İncəsənət Universitetinin 2021-2025-ci illər üçün Strateji İnkişaf Planı (bundan sonra – SİP) hazırlanmışdır. ADMİU-nun SİP-i *təhsil – yaradıcılıq – elm* inteqrasiyasının təmin edilməsini bir proqram oriyentiri kimi görür. ADMİU-nun SİP-inin ikinci prioriteti özündə “Elmi-tədqiqat fəaliyyətinin effektivliyinin artırılması, elmi nəticələrin tədrisin keyfiyyətinin yüksəldilməsinə, Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafına yönəldilməsi”ni, üçüncü prioriteti “Universitetin mədəniyyət və incəsənət üzrə beynəlxalq təhsil və elm

məkanına inteqrasiyası"nı və nəhayət, beşinci prioritet "Yerli və beynəlxalq proqram və layihələrdə iştirakının təmin olunması"nı ehtiva edir. ADMİU-nun Elmi-tədqiqat və yaradıcılıq strategiyasının işlənməsi zamanı göstərilən məqamlara istinad edərək ayrılıqda elmi-tədqiqat və yaradıcılıq istiqamətləri üzrə hədəflər təyin olunmuşdur.

Bütün bunlardan çıxış edərək, "ADMİU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021-2025-ci illər) və ortamüddətli (2021-2023-ci illər) Fəaliyyət Planı" tutulmuşdur. Planın 2 saylı Prioriteti "Elmi tədqiqatlar və innovasiyalar" adlanır. Əsas məqsəd kimi burada tədqiqat və sahibkarlıq ekosisteminin qurulması nəzərdə tutulur. *Hədəf 2.1 – ADMİU-nun professor-müəllim heyəti, elmi işçi, doktorant, magistrant və bakalavrlarda tədqiqat, sahibkarlıq və peşə səriştəsin formalaşması üçün şəraitin yaradılması*, həmçinin *Hədəf 2.4 – Professor-müəllim heyətinin, doktorantlarının, magistrantların və bakalavrların nəşr fəaliyyətinin artırılması* ADMİU-nun Elmi-tədqiqat və yaradıcılıq strategiyasının əsas elmi tədqiqat hədəfidir. Bundan əlavə, ADMİU-nun Elmi-tədqiqat və yaradıcılıq strategiyası Universitetin Fəaliyyət Planının "Beynəlmiləlləşmə" adlı 3 saylı Prioritetin *Hədəf 3.1 – Təhsil xidmətləri və tədqiqat/beynəlxalq layihələr vasitəsilə ADMİU-nun rəqabət qabiliyyətinin artırılması* istiqamətinin 3.1.1 – Beynəlxalq elmi və təhsil proqramlarının (layihələrin) sayının artırılması və 3.1.2 – Beynəlxalq təhsil və elmi proqramlarda (layihələrdə) iştirak edən professor-müəllim heyətinin, gənc tədqiqatçıların və tələbələrin sayının artırılması bəndlərinin icrasını da nəzərdə tutur.

Yaradıcılıqla bağlı hədəflər isə "Sosiallıq" adlı 4 saylı Prioritetin Hədəf 4.1 – Universitetin sosial fəaliyyətinin gücləndirilməsi və Hədəf 4.2 – Təhsilalanların ictimai fəallığının artırılması, sosial layihələrinin dəstəklənməsi, Azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin və s. təbliği istiqamətində fəaliyyətin gücləndirilməsi istiqamətlərinin əsasında işlənmişdir.

"ADMİU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021-2025-ci illər) və ortamüddətli (2021-2023-ci illər) Fəaliyyət Planı" bu hədəflər üzrə icra planını aşağıdakı kimi müəyyənləşmişdir:

| № | Fəaliyyətin adı | Fəaliyyətin nəticəsi | Cavabdehlik | İcra müd-dəti |
|---|---|---|---|---|
| **PRİORİTET 2. ELMİ TƏDQİQATLAR VƏ İNNOVASİYALAR** | | | | |
| **Məqsəd: Tədqiqat və sahibkarlıq ekosisteminin qurulması** | | | | |
| **Hədəf 2.1. ADMİU-nun professor-müəllim heyəti, elmi işçi, doktorant, magistrant və bakalavrlarında tədqiqat, sahibkarlıq və peşə səriştəsinin formalaşması üçün şəraitin yaradılması** | | | | |
| 2.1.1 | Tələbə elmi ideyalarının reallaşdırılması, | ADMİU-nun EŞ-nın qərarı | Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə | 2021-2022 |

| | | | | |
|---|---|---|---|---|
| | sahibkarlıq və peşə səriştəsinin formalaşdırılması və inkişaf etdirilməsni təmin etmək sahəsində fəaliyyətin gücləndirilməsii | | prorektor. | |
| 2.1.2 | Yaradıcılıq işlərinin və mədəniyyət və incəsənət yönümlü elmi nəticələrin və kommersiyalaşdırılması ADMİU-da sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə kollektiv tədqiqat üçün şəraitin yaradılması | ADMİU-nun EŞ-nın qərarı | Elm və yaradıcılıq işləri üzrə prorektor, Tədris işləri üzrə prorektor | 2021-2023 |
| 2.1.3 | Sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə kollektiv tədqiqat üçün şəraitin yaradılması | ADMİU-nun EŞ-nın qərarı | Elm və yaradıcılıq işləri üzrə prorektor, Keyfiyyət təminatı və strateji planlama departamenti, İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi, Sahibkarlıq və innovasiya mərkəzi | 2023-2025 |
| 2.1.4 | ADMİU--nun professor-müəllim və tələbələri tərəfindən həyata keçirilən layihələrin sayının artırılması | Qeydiyyat sənədləri | Elm və yaradıcılıq işləri üzrə prorektor | 2021-2025 |
| 2.1.5 | Mədəniyyət və incəsənət müəssisələri ilə bağlanılmış müqavilələrin sayının artırılması | Müqavilələr | Elm və yaradıcılıq işləri üzrə prorektor | 2021-2025 |
| **Hədəf 2.2. Yaradıcılıq infrastrukturunun modernləşdirilməsi. Rəqəmsal infrastruktur və müasir elmi-texniki baza ilə təchiz edilməsi** | | | | |
| 2.2.1 | Yaradıcılıq sahələrinin inkişafı üçün modern avadanlıq və cihazlarla təchiz olunmuş studiya və laboratoriyaların yaradılması | Studiya və emalatxanalar | İnzibati-təsərrüfat işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor | 2021-2025 |
| **Hədəf 2.3. ADMİU-da yaradıcılıq və elmi fəaliyyətin sahibkarlıq tipli innovasiya fəaliyyətlərinə istiqamətləndirilməsi və yeni prinsiplərin formalaşması** | | | | |
| 2.3.1 | Sahibkarlıq və innovasiya mühitinin inkişaf etdirilməsi məqsədilə müvafiq struktur vahidlərinin yaradılması | Sahibkarlıq və innovasiya mərkəzi, İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi | Elm və yaradıcılıq işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor | 2021-2023 |
| 2.3.2 | Yerli və xarici tərəfdaş mərkəzlərinin sayının artırılması | Müqavilələr | Elm və yaradıcılıq işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor | 2021-2025 |
| 2.4.3 | Qrant və müqavilə əsaslı elmi-tədqiqat layihələrində iştirak edən professor-müəllim, əməkdaş və | | Elm və yaradıcılıq işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor | |

| | | | | |
|---|---|---|---|---|
| | tələbələrin sayının ümumi kontingentdəki payının artırılması | | | |
| **Hədəf 2.4. Professor-müəllim heyətinin, doktorantlarının, magistrantların və bakalavrların nəşr fəaliyyətinin artırılması** | | | | |
| 2.4.1 | Web of Science (Clarivate Analytics) və SCOPUS (Elsevier) verilənlər bazalarında indekslənən jurnallardakı məqalə sayının ümumi məqalə sayındakı payının artırılması | Web of Science (Clarivate Analytics) və Scopus (Elsevier) bazasında indekslənən jurnallardakı məqalələr və nəşrlər | Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedra müdirləri | 2021-2025 |
| 2.4.2 | Materialları Web of Science və SCOPUS verilənlər bazalarında indekslən konfransların sayının artırılması | Məqalələr, nəşrlər | Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedra müdirləri | 2021-2025 |
| 2.4.3 | Xaricdə dərc olunan elmi əsərlərin sayının ümumi məqalə sayındakı payının artırılması | Məqalələr, nəşrlər | Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedra müdirləri | 2021-2025 |
| 2.4.4 | ADMİU-nun alimlərinin Web of Science və SCOPUS verilənlər bazasında indekslənən jurnallardakı elmi əsərlərinə istinadların sayının artırılması | Məqalələr, nəşrlər | Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedra müdirləri | 2021-2025 |
| **PRİORİTET 3. BEYNƏLMİLƏLLƏŞMƏ** | | | | |
| **Məqsəd: Təhsil və elmin beynəlmiləlləşdirilməsi. Beynəlxalq əməkdaşlığın fəal iştirakçısına çevrilmək, strateji təhsil və elmi tərəfdaşlıq əlaqələrini genişləndirmək, beynəlxalq təhsil məkanında ADMİU-nun imicini təbliğ etmək.** | | | | |
| **Hədəf 3.1. Təhsil xidmətləri və tədqiqat/beynəlxalq layihələr vasitəsilə ADMİU-nun rəqabət qabiliyyətinin artırılması** | | | | |
| 3.1.1 | Beynəlxalq elmi və təhsil proqramlarının (layihələrin) sayının artırılması | Akademik mobillik və mübadilə proqramların, ikili diplom, müştərək beynəlxalq layihələr | Beynəlxalq əlaqələr üzrə prorektor, Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor | 2021-2015 |
| 3.1.2 | Beynəlxalq təhsil və elmi proqramlarda (layihələrdə) iştirak edən professor-müəllim heyətinin, gənc tədqiqatçıların və tələbələrin sayının artırılması | Bolonya prosesi Mərkəzinin məlumatları, hesabatları və akademik mobillik | Beynəlxalq əlaqələr üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Tədris işləri üzrə prorektor | 2021-2025 |
| 3.1.7 | Xarici tərəfdaş universitetləri cəlb etməklə beynəlxalq | Konfrans materialları və elmi toplular | Elm və yaradıcılıq işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə | 2021-2025 |

| | | | | |
|---|---|---|---|---|
| | konfrans və seminarların sayının artırılması | | prorektor, kafedralar | |
| **PRİORİTET 4. SOSİALLIQ** | | | | |
| Məqsəd: Sosial fəaliyyətin inkişaf etdirilməsi, professor-müəllim heyətinin və tələbə gənclərin ölkənin və Universitetin ictimai həyatında aktiv iştirakının təmin olunması; Resursların və infrastrukturun inkişaf etdirilməsi; Yüksək şəxsi keyfiyyətlərə malik və müasir istehsal şəraitinə uyğunlaşa bilən mütəxəssislərin hazırlanması | | | | |
| **Hədəf 4.1. Universitetin sosial fəaliyyətinin gücləndirilməsi** | | | | |
| 4.1.1 | Universitetin nüfuzunun artırılması istiqamətində tədbirlərin görülməsi | Layihələr | Beynəlxalq əlaqələr üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor | 2021-2025 |
| 4.1.2 | Professor-müəllim heyəti və təhsilalanların ölkəmiqyaslı və beynəlxalq sosial layihələrdə iştirak | Layihələr | Beynəlxalq əlaqələr üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor | 2021-2025 |
| 4.1.4 | Yaradıcılıq birlikləri, ictimai qurumlar ilə birgə sosial layihələrin həyata keçirilməsi | Əməkdaşlıq müqavilələri, hesabatlar | Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor | 2021-2025 |
| 4.1.5 | ADMİU-nun professor-müəllim heyəti tərəfindən sosioloji tədqiqatların aparılması və ictimaiyyətə təqdim edilməsi | Əməkdaşlıq müqavilələri, hesabatlar | Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedralar | 2021-2025 |
| **Hədəf 4.2 Təhsilalanların ictimai fəallığının artırılması, sosial layihələrinin dəstəklənməsi, Azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin və s. təbliği istiqamətində fəaliyyətin gücləndirilməsi** | | | | |
| 4.2.1 | ADMİU-da innovativ mühitin yaradılmasına yönəlmiş tədbirlərin sayının artırılması – tələbələrin sosial adaptasiyası | Hesabatlar, protokollar | Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Ümumi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor | 2021-2025 |
| 4.2.2 | Tələbə təşkilatlarının sosial layihələrinin dəstəklənməsi, bu istiqamətdə keçirilən tədbirlərin sayının artırılması | Sosial layihələr | Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Ümumi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, TEYC | 2021-2025 |
| 4.2.3 | Gənclərə Azərbaycançılıq ideologiyasını, mənəvi dəyərləri və s. aşılayan tədbirlərin sayının artırılması | Tədbirlər | Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Ümumi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, İnzibati-təsərrüfat işləri üzrə prorektor | 2021-2025 |
| 4.2.4 | Elmi, yaradıcılıq və idman müsabiqələrinin sayının artırılması | Hesabatlar, protokollar | Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Ümumi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, İnzibati-təsərrüfat işləri üzrə prorektor | 2021-2025 |

ADMİU-nu digər universitetlərdən fərqləndirən özünəməxsusluğu burada həm elmi-tədqiqat, həm də yaradıcılıq istiqamətinin eyni dərəcədə inkişaf etdirilməsidir. Universitetdə 12 yaradıcı, 8 nəzəri kafedra fəaliyyət göstərir.

**Elmi-tədqiqat strategiyası**, əsasən, iki prioritet üzərində qurulur:

- Professor-müəllim heyətinin illik elmi-tədqiqat işlərinin tədris prosesinə inteqrasiyası;
- Universitetin prioritet nəzəri sahələri üzrə (İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi, Teatr sənəti, Musiqi sənəti, Kino, tele və digər ekran sənətləri, Dekorativ-tətbiqi sənət, Təsviri sənət) tədqiqat işlərinin istiqamətinin müasir tələblərə uyğun şəkildə müəyyənləşdirilməsi.

**Yaradıcılıq strategiyası** da, öz növbəsində, iki prioritetə söykənir:

- Professor-müəllim heyətinin illik yaradıcılıq-ifa işlərinin seçilməsi prosesində müasirlik və Azərbaycançılıq ideyalarının əsas götürülməsi;
- Yaradıcı layihələrin dəstəklənməsi.

Bu məqamları nəzərə alaraq hazırlanmış ADMİU-nun 2022-2025-ci illəri əhatə edən Elmi-Tədqiqat və Yaradıcılıq Strategiyası aşağıdakı 7 hədəfdən ibarətdir:

1. ADMİU-nun professor-müəllim heyətinin keyfiyyətli davamlı tədqiqat fəaliyyətinin stimullaşdırılması;
2. Magistratura və doktorantura təhsil səviyyələrində tədqiqat mühitinin keyfiyyətinin yaxşılaşdırılması;
3. Magistratura və doktorantura təhsil səviyyələrində kadr hazırlığının inkişafı üçün mühitin yaxşılaşdırılması;
4. ADMİU-nun professor-müəllim heyətinin, doktorantlarının və magistrantlarının nəşr fəaliyyətinin artırılması;
5. Elmi tədqiqatlar sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi;
6. Yaradıcılıq-ifa işlərinin müasir tələblərə uyğun planlaşdırılması;
7. Yaradıcılıq layihələrinin idarəolunması.

**Strateji hədəf 1: *ADMİU-nun professor-müəllim heyətinin keyfiyyətli davamlı tədqiqat fəaliyyətinin stimullaşdırılması***

1.1 Normativ tədqiqat parametrlərini təyin edən təlimatların hazırlanması;

1.2 ADMİU-nun akademik heyətinin tədqiqat fəaliyyətinin gerçəkləşməsi məqsədi ilə resursların ayrılması;

1.3 Akademik heyətin tədqiqat fəaliyyətini təkmilləşdirmək üçün davamlı

təlimlərin təşkil olunması;

1.4 Universitetin Kitabxana-İnformasiya Mərkəzi tərəfindən beynəlxalq elektron informasiya resurslarına əlçatanlığın təmin olunması;

1.5 SCOPUS və Web of Science indeksli jurnallarda elmi məqalələri dərc olunmuş tədqiqatçıların mükafatlandırılması planının hazırlanması;

1.6 Universitetdə müxtəlif beynəlxalq elmi konfransların keçirilməsinə maddi və təşkilati dəstəyin göstərilməsi.

**Strateji hədəf 2: *Magistratura və doktorantura təhsil səviyyələrində tədqiqat mühitinin keyfiyyətinin yaxşılaşdırılması***

2.1 Magistratura və doktorantura səviyyələrində mövzu seçiminin koordinasiyasının təmin olunması;

2.2 Magistratura təhsil səviyyəsində tədqiqatın metodologiyası fənninin tədrisinin təkmilləşdirilməsi;

2.3 Magistratura və doktorantura təhsil səviyyələrində tədqiqat keyfiyyətini yüksəltmək üçün normativ parametrlərin təyin olunması;

2.4 Magistrant və doktorantların tədqiqat bacarıqlarının təkmilləşməsinə yönəlmiş tədbirlərin keçirilməsi;

2.5 Magistratura və doktorantura təhsil səviyyələrində tədqiqatın icra keyfiyyətinə daimi nəzarətin təmin olunması.

**Strateji hədəf 3. *Magistratura və doktorantura təhsil səviyyələrində kadr hazırlığının inkişafı üçün mühitin yaxşılaşdırılması***

3.1 Magistrant və doktorantların tədqiqat mövzularının seçilməsində aktuallıq və praktik-nəzəri əhəmiyyət meyarlarının üstünlüyünün təmin olunması;

3.2 Magistratura və doktorantura təhsil səviyyələrində ixtisas fənlərinin tədrisinin müasir təhsil standartlarına uyğunluğuna nəzarətin təmin olunması;

3.3 Prioritet elm sahələri üzrə xarici ölkələrin nüfuzlu universitetlərinin alimlərinin ADMİU-nun kadr hazırlığına cəlb olunması;

3.4 Prioritet elm sahələri üzrə elmi kadr hazırlığı işinin təkmilləşdirilməsi;

3.5 Doktorant və dissertantların Universitetdə tədris prosesinə cəlb olunması.

**Strateji hədəf 4:** ***ADMİU-nun professor-müəllim heyətinin, doktorantlarının və magistrantlarının nəşr fəaliyyətinin artırılması***

4.1 Universitetin elmi jurnallarında dərc olunan məqalələrə obyektin rəqəmsal identifikatorunun (DOI) alınmasının tənzimlənməsi;

4.2 Magistrant və doktorantların elmi tədqiqatlarının nəticələrinin AAK-ın tövsiyə etdiyi nəşrlərdə müntəzəm çap olunmasına nəzarətin təmin olunması;

4.3 Universitetin elmi jurnallarının fəaliyyətinin nüfuzlu beynəlxalq bazaların tələblərinə uyğunlaşdırılması;

4.4 Universitetin elmi jurnallarının indeksləşməsi istiqamətində tədbirlər planının hazırlanması.

**Strateji hədəf 5:** ***Elmi tədqiqatlar sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi***

5.1 Elmi tədqiqatlar sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

5.2 Universitetin professor-müəllim heyətinin, doktorantlarının və magistrantlarının beynəlxalq elmi platformalarda (ORCID, Web of Science, Scopus, ResearchGate, Google Scholar) akademik profillərinin yaradılması;

5.3 ADMİU-nun "Mədəniyyət dünyası" jurnalının açıq giriş imkanlı beynəlxalq platformalarda qeydiyyata alınması üçün mərhələli tədbirlər planının həyata keçirilməsi;

5.4 Magistrant, doktorant və gənc tədqiqatçıların beynəlxalq mübadilə proqramları çərçivəsində elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə həvəsləndirilməsi.

**Strateji hədəf 6:** ***Yaradıcılıq-ifa işlərinin müasir tələblərə uyğun planlaşdırılması***

6.1 Professor-müəllim heyətinin yaradıcılıq-ifa işlərinin ifası zamanı mənəvi dəyərlərin aşılanması;

6.2 Yaradıcılıq-ifa işlərinin hazırlanması prosesində kafedralararası müştərək iş birliyinin aktivləşdirilməsi;

6.3 Professor-müəllim heyətinin təqdim etdiyi yaradıcılıq-ifa işlərinin kommersiyalaşdırılması;

6.4 Tədris planına müasir dünya dramaturgiya nümunələrinin salınması;

6.5 Tələbələrin yaradıcılıq-ifa işlərinin təşviqi üçün şəraitin yaradılması.

**Strateji hədəf 7:** ***Yaradıcılıq layihələrinin idarəolunması***

7.1 Azərbaycan incəsənəti və mədəniyyətinin yaradıcılıq sferasında təmsili (müsabiqələr, konsertlər, festivallar, sərgilər və s. təşkili və iştirak);

7.2 Əhalinin həssas qruplarının cəlb olunması ilə dəstək yönümlü birgə yaradıcı layihələrin hazırlanması;

7.3 Milli-mənəvi dəyərləri təbliğ edən tədbirlərin sayının artırılması;

7.4 Müasir meyarlara cavab verən yaradıcı layihələrin dəstəklənməsi.